**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı İdarəetmə və Texnologiya kolleci**

# “Turizmin menecmenti”

fənninin

# PROQRAMI

040714-“ Turist, mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi”

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı İdarəetmə və Texnologiya Kollecinin
Metodiki şurasının 15 sentyabr 2017-ci il
tarixli iclasının qərarı ilə təsdiq edilmişdir.
( Protokol № 1 )

**Bakı-2017**

**Tərtib etdi:**

Bakı İdarəetmə və Texnologiya kollecinin ixtisas müəllimi — Əsgərli Güllü Fərman

**Redaktor:**

Bakı İdarəetmə və Texnologiya kollecinin ixtisas müəllimi — Əhmədli Fərid Xanoğlan

**Rəy verənlər:**

Bakı İdarəetmə və Texnologiya kollecinin müəllimi — 1.Cəbiyev Cavid Şəfiyulla

Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi — 2. Hüseynzadə Aynur

# İZAHAT VƏRƏQİ

**Fənnin tədrisinə ayrılan saatların miqdarı - 75 saat**

Fənnin tədrisinə ayrılan saatların miqdarı 75 saatdır: mühazirə 45 saat, seminar 30 saat .

Proqramda turizm sahəsində menecmentin sosial-iqtisadi mahiyyəti aydınlaşdırılır, menecmentin spesifikliyi qeyd olunur, menecmentin nəzəriyyə və praktikasının inkişafına baxılır, turizmin idarəedilməsinin əsas şərtləri və prinsipləri nəzərdən keçirilir, turist müəssisələrində menecment konsepsiyasının reallaşdırılması texnologiyası şərh olunur, turizmdə marketinq strategiyasının formalaşmasına mühüm yer ayrılır, turist müəssisələrində məhsul, qiymət, satış strategiyaları tədqiq olunur, marketinqin təşkili və nəzarət sistemi öyrənilir. Tədris proqramının məzmunu və quruluşu menecment ilə bağlı olan və yuxarıda qeyd olunan məsələlərin qarşılıqlı əlaqələri və asılılığı nəzərə alınmaqla məntiqi ardıcıllıqla qurulmuşdur.

Turizm öz perspektivliyinə görə qeyri-neft sektoru sahələri içərisində aparıcı mövqelərdən birini tutur. Ölkəmizdə turizmin əksər növlərinin (mədəni, sosial, müalicə-sağlamlıq, kommersiya, ekoloji, idman və s.) inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə Azərbaycanda turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir. Lakin buna baxmayaraq ölkənin turizm potensialından hələlik lazımınca istifadə edilmir. Bu potensialın gerçəkliyə çevrilməsində menecmentin rolu olduqca mühümdür. Bütün bunlar əsas tutularaq kursun müasir tələblərə cavab verən tədris proqramının hazırlanması olduqca vacib və aktualdır.

Bu fənnin tədrisində əsas məqsəd tələbələrə bazar münasibətləri şəraitində turizm sahəsində menecment haqqında zəruri bilikləri öyrətmək və onun praktikada tətbiq edilməsi sahəsində vərdişlərin aşılanmasına kömək göstərməkdir.

## MÖVZULAR ÜZRƏ SAATLARIN PAYLANMASI

| № | Mövzuların adları | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Turizm menecmentinin mahiyyəti və əsas istiqamətləri | **2** | **2** |
| 2. | Turizm idarəçiliyinin metodoloji əsasları | **2** | **2** |
| 3. | Turizmin planlaşması və onun əsas prinsipləri | **4** | **2** |
| 4. | Turizm idarəçiliyin müasir şəraitdə təkmilləşmə istiqamətlər | **2** | **2** |
| 5. | Turizm məhsulunun idarə olunması | **4** | **2** |
| 6. | Turizmin ilk modelləri | **2** | **2** |
| 7. | Turizmin idarə olunmasının konseptual əsasları | **4** | **2** |
| 8. | Turizmin bazar tipli modelləri | **2** | **2** |
| 9. | Turizmin regionların inkişafındakı rolu, qarşılıqlı əlaqə və idarəetmə xüsusiyyətləri | **4** | **2** |
| 10. | Regional turizmin planlaşması və idarə olunmasının əsas istiqamətləri | **4** | **2** |
| 11. | Regionlarda turizmin inkişafının dövlət siyasəti və dövlət tənzimlənməsi | **2** | **2** |
| 12. | Turizmin regionlarda təşkilinin və idarə olunmasının əsas amilləri və onlardan istifadənin iqtisadi mexanizmləri | **2** | **2** |
| 13. | Turizmin inkişafının sosial-iqtisadi aspektləri | **4** | **2** |
| 14. | Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti və perspektivi | **2** | **2** |
| 15. | Dünya təcrübəsi və dünya ölkələrində turizmin inkişafının əsas əlamətləri | **4** | **2** |
| 16. | Turizm potensiyalının qiymətləndirilməsi metodikası | **1** | |
| **Cəmi: 75 saat** | | | |

## MÖVZULAR VƏ ONLARIN İZAHI

***Mövzu 1.* Turizm menecmentinin mahiyyəti və əsas istiqamətləri – 4 saat**

Turizmdə menecmentin mahiyyəti, formalaşması mərhələləri. Turizmdə marketinqin səviyyələri. Menecment anlayışı. Menecmentin əsas istiqamətləri.

***Mövzu 2.* Turizm idarəçiliyinin metodoloji əsasları – 4 saat**

Marketinqin idarə edilməsi prosesi: turist müəssisəsinin bazar imkanlarının təhlili, məqsəd bazarlarının seçilməsi, marketinq kompleksinin hazırlanması və marketinq tədbirlərinin həyata keçirilməsini əhatə edir. Marketinq fəaliyyətində informasiya təminatı. Marketinq informasiya sistemi, onun tərkib hissələri. İnformasiyanın toplanmasının metodları.

***Mövzu 3.* Turizmin planlaşması və onun əsas prinsipləri – 6 saat**

Marketinq planlaşdırılması prosesi,onun forma və metodları. Strateji marketinq planlaşdırılması. Strateji marketinq planlaşdırılmasının səviyyəsi və mərhələləri. İllik marketinq planlaşdırılması və onun ardıcıl mərhələlərinin həyata keçirilməsi.

***Mövzu 4.* Turizm idarəçiliyin müasir şəraitdə təkmilləşmə istiqamətləri – 4 saat**

Turizm və regional inkişaf. Turizmin regional xüsusiyyətləriTurizm və sosial inkişaf. Turizmin əhali məşğulluğunda rolu.

.

***Mövzu 5.* Turizm məhsulunun idarə olunması – 6 saat**

Turizm məhsulu və xidmət üsulları. Turizm məhsuluna yanaşma. Turizm məhsulunun əlamətləri və ona olan tələblər.Turizm məhsulun formalaşması mərhələləri.

***Mövzu 6.* Turizmin ilk modelləri – 4 saat**

Marketinq mühitnin amilləri. Mikromühitin əsas amilləri və onların firmaya təsiri. Mikromühitdə vasitəçilər, müştərilər, rəqiblər və kontakt auditoriyası. Turist müəssisələri marketinqinin makromühit amilləri. Makromühitin sosial, demoqrafik, iqtisadi, siyasi-hüquqi və mədəni amilləri.

***Mövzu 7.* Turizmin idarə olunmasının konseptual əsasları – 6 saat**

Turizmdə marketinq nəzarət prosesi və onun mərhələləri. Marketinqin nəzarəti prosesi- qarşıya qoyulan məqsədə nail olması və nəticələrin qiymətləndirilməsi,

müəyyən edilmiş kənarlaşmaların aşkar edilməsi prosesidir. Marketinq nəzarətinin amilləri. Strateji marketinq nəzarəti. Operativ marketinq nəzarəti. Turizmdə marketinq təftişi. Mənfəətliyə nəzarət, illik planlara nəzarət.

***Mövzu 8.*** **Turizmin bazar tipli modelləri – 4 saat**

Turizmin inkişaf modeli .Turizmin inkişafında dövlət və yerli idarəetmetmənin təkmilləşdirilməsi . Beynəlxalq turizm inkişafının əsas istiqamətləri

***Mövzu 9.*** **Turizmin regionların inkişafındakı rolu, qarşılıqlı əlaqə və idarəetmə xüsusiyyətləri – 6 saat**

Turizmin sahələri sosial-iqtisadi rolunun qiymətləndirilməsində rolunun nəzərə alınması və perspektiv proqnozu.Turizmin potensialının qiymətləndirliməsi.

***Mövzu 10.*** **Regional turizmin planlaşması və idarə olunmasının əsas istiqamətləri – 6 saat**

Regional turizmin planlaşması.Regional turizmin idarə olunmasının əsasstiqamətləri.

Turizmin kənd təsərrüfatı inkişafında sosialiqtisadi amil kimi qiymətləndirilməsi

***Mövzu 11.*** **Regionlarda turizmin inkişafının dövlət siyasəti və dövlət tənzimləməsi – 4 saat**

Turizm sahələrinin sosial-iqtisadi rolunun qiymətləndirilməsi.Perspektiv proqnozu. Regionlarda turizmin inkişafının dövlət tənzimləməsi. Turizmin inkişafında dövlət siyasəti.

***Mövzu 12.*** **Turizmin regionlarda təşkilinin və idarə olunmasının əsas amilləri və onlardan istifadənin iqtisadi mexanizmləri – 4 saat**

Turizm və regional inkişaf.Regionlarda turizmin təşkili.Turizmin idarə olunması.Turizmin idarə olunmasının əsas amilləri.Turizmin idarə olunmasınln iqtisadi mexanizmləri.

***Mövzu 13.*** **Turizmin inkişafının sosial-iqtisadi aspektləri – 6 saat**

Turizmin sosial-iqtisadi mahiyyəti. Turizmin inkişafının problemləri. Turizmin sahə və ərazi xüsusiyyətləri. Turizmin sosial-iqtisadi inkişafda rolu və dinamikası

***Mövzu 14.* Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti və perspektivi – 4 saat**

Turizm və regional inkişaf. Turizm və sosial inkişaf. Turizmin əhali məşğulluğunda rolu.

***Mövzu 15.* Dünya təcrübəsi və dünya ölkələrində turizmin inkişafının əsas əlamətləri – 6 saat**

Dünya turizm təcrübəsi. Turizmin inkişaf etdiyi ölkələrin təcrübəsi. Turizmin inkişaf göstəriciləri. İnkişaf əlamətləri.

***Mövzu 16.* Turizm potensiyalının qiymətləndirilməsi metodikası – 1 saat**

Potensiyal turizm imkanları. Onların qiymətləndirilməsi. Turizm imkanlarının qiymətləndirmə xüsusiyyətləri. Turizm imkanlarının qiymətləndirilməsi zamanı qarşıya çıxan problemlər və bu problemlərin həəli yolları.

**Bakı İdarəetmə və Texnologiya Kollecinin ixtisas fənn müəllimi Əsgərli Güllü Fərman qızı orta ixitsas müəssisələrində təhsil alan tələbələr üçün "Turizmin menecmenti" fənnindən hazırladığı proqrama**

**R Ə Y**

Turizm əsasən sosial-iqtisadi sahə kimi XIX əsrin ortalarından inkişaf etməyə başlamışdır. Bu dövrə qədər isə turizm fərdi gəzinti və səyahət xarakteri daşımış, qeydiyyata düşmədən müxtəlif əraziləri, ölkələri gəzən adamlara "turist" demişlər.

Turizm – hər bir dövlətin xarici əlaqələrinin xüsusi forması, bu və ya digər ölkədə səyahətdə olan xarici turistlər tərəfindən əldə olunan məlumatların mühüm kanalıdır. Turizm həm də beynəlxalq mədəni əməkdaşlığın effektli forması, həm də beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə və öyrənilməsinə kömək edən vasitədir.

Bu mənada rəy verilən "Turizmin menecmenti" fənn proqramı diqqəti daha çox cəlb edir. Proqramda mövzular məntiqi ardıcıllıqla əlaqələnməklə turizm fənnini tam əhatə edir.

Tədris proqramının "Turizmin menecmenti" fənnini tam əhatə etdiyini nəzərə alaraq onun dərc olunmasını lazım bilirik.

**Bakı İdarəetmə və Texnologiya Kollecinin ixtisas fənn müəllimi** **Cəbiyev Cavid Şəfiyulla**

## ƏDƏBİYYAT


1.S.Yeganlı,E.Hacıyev"Turizm"Bakı-2006

2.H.Soltanova"Turizmin əsasları"Bakı-2002

3.Ə.Əlirzayev"Turizmin iqtisadiyyatı və idarə edilməsi "Bakı-2011

4.B.Bilalov"Turizmin fəaliyyətinin tənzimlənməsi"Bakı-2006

A.Kərimli "Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri" Bakı-2006

5. İlqar Hüseynov, Nigar Əfəndiyeva "Turizmin əsasları" Bakı -2007

6. http://unec.edu.az/application/uploads/2015/05/Nigar-Dissertasiya.pdf

7. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. "Beynəlxalq turizmin coğrafiyası" Bakı-2002

8.А.Ю.Александрова "Международный туризм" Москва -2002

9.А.А.Глушко, А.М.Сазыкин "География туризма" Москва -2007

10. Манаков А. Г. "Туристские регионы мира" Псков - 2011

11. R.Kasumov "Beynəlxalq turizm bazarı" Bakı-2012

12. S.Rəhimov "Turizm-ekskursiya işinin təşkili" Bakı-2004

13. B.Ə.Bilalov, Ç.G.Gülalıyev "Turizmin əsasları" Bakı-2015